Azərbaycan.- 2022.- 5 aprel. S. 3.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Milli Məclisdə Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb

**Aprelin 4-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclisin Sədri ötən il Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzvlüyünə qəbul edilməsinin 20 ilinin tamam olduğunu diqqətə çatdırıb. Sahibə Qafarova ölkəmizin ötən müddət ərzində Avropa Şurası və onun institutları ilə konstruktiv dialoq əsasında fəal əməkdaşlıq etdiyini qeyd edib. Bildirilib ki, Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin üzvləri bu təşkilatın tədbirlərində, onun komitələrinin işində yaxından iştirak edir. Deputatlarımız AŞPA-nın qurumlarında müxtəlif aparıcı vəzifələrə seçiliblər. Pandemiyaya baxmayaraq, deputatlarımız həmişə AŞPA-nın tədbirlərinə onlayn və ya ənənəvi formatda qatılıblar və sıx əməkdaşlığımızı bundan sonra da davam etdirmək niyyətindəyik.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycanla Avropa Şurası arasında 2022-2025-ci illəri əhatə edən fəaliyyət proqramı qəbul olunduqdan sonra əməkdaşlığımızın daha da dərinləşməsinə kömək edəcək. Həmin proqramda bir sıra sahələrdə əməkdaşlıq nəzərdə tutulur.

Görüşdə 44 günlük Vətən müharibəsi barədə məlumat verən S.Qafarova Azərbaycanın sülh və sabitliyin tərəfdarı olduğunu qeyd edib. Nəzərə çatdırılıb ki, Azərbaycanın Vətən müharibəsində qələbəsi və 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarını azad etməsi regionda yeni reallıqlar yaradıb. Ölkəmiz ərazilərinin tezliklə minalardan təmizlənməsi və 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarının öz yurdlarına qayıtması üçün sürətli bərpa və quruculuq işləri aparır. Sahibə Qafarova deyib: “Ümid edirik ki, Ermənistan üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəlikləri tam olaraq yerinə yetirəcək. Sülh sazişinin imzalanması region ölkələrinin inkişafına yeni təkan verəcəkdir”.

Milli Məclisdə olmaqdan və qonaqpərvər münasibətdən məmnunluğunu bildirən Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç onun təmsil etdiyi təşkilatla Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini qeyd edib. Bildirib ki, AŞ və Azərbaycan arasında qəbul olunması nəzərdə tutulan yeni fəaliyyət planı gələcək əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Səfər çərçivəsində keçirdiyi görüşlər barədə təəssüratlarını bölüşən qonaq müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib. Söhbət zamanı Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və digər rəsmi şəxslər iştirak ediblər.